**Respublika.** - 2025.- 5 fevral. - № 25. - S. 7.

# Naxçıvanın muxtariyyəti tarix nailiyyətdir

**Gülxarə Tarverdiyeva,**
Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı

***Qədim, zəngin tarixə malik Naxçıvan diyarı Azərbaycan dövlətçiliyinin formalaşmasında, XX əsrin sonunda mübarizələrlə dolu şanlı tarixə malik xalqımızın yenidən müqəddəs amalına - istiqlalına qovuşmasında əvəzsiz rol oynamışdır. 1918-1920-ci illərdə bölgədə çox mürəkkəb tarixi şəraitin yaranması, Zəngəzurun qərb hissəsinin itirilməsi nəticəsində Naxçıvan ərazisinin Azərbaycandan ayrı düşməsi uzun illərdən bəri xarici havadarlarının köməyi ilə bu diyara sahib olmağa çalışan erməniləri cəsarətləndirdi. 1920-ci il dekabrın 2-də Rusiya və Ermənistan arasında bağlanmış hərbi-siyasi sazişə əsasən qədim Azərbaycan torpağı olan Zəngəzur Ermənistana verildi və beləliklə, Naxçıvan məqsədli şəkildə Azərbaycanın əsas ərazisindən ayrıldı. Türk dünyasına düşmən kəsilən qüvvələrin niyyətləri o idi ki, bir müddət sonra Naxçıvanı ölkənin əsas ərazisindən ayrı düşməsi arqumentini irəli sürməklə onu Ermənistana birləşdirsinlər. Lakin Naxçıvanı Ermənistana birləşdirmək cəhdi yerli əhalinin kəskin etirazı ilə qarşılaşdı. 1921-ci ilin yanvarında Naxçıvanın Azərbaycan SSR tərkibində olması barədə referendum keçirildi, rəy sorğusunun nəticəsində əhalinin 90 faizindən çoxu Naxçıvan diyarının muxtar respublika hüququnda Azərbaycan SSR-in tərkibində qalmasına tərəfdar çıxdı.***

Naxçıvanın muxtariyyət qazanması regional əhəmiyyət kəsb edən siyasi hadisə olmaqla yanaşı, mühüm strateji əhəmiyyətə malik olan bölgənin Azərbaycanın tərkibində qalmasına şərait yaratdı. Yəni muxtariyyət həm də ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılması baxımından vacib amil kimi diqqəti cəlb edir.

Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında 1921-ci il martın 16-da imzalanan Moskva müqaviləsində təsbit edildi. Müqavilədə deyilirdi ki, tərəflər üçüncü maddəyə əsasən Naxçıvan vilayətinin Azərbaycan Respublikasının himayəsi altında və həmin vilayətin Azərbaycan tərəfindən heç bir üç dövlətə güzəşt edilməməsi şərtilə muxtar ərazi təşkil etməsinə razıdırlar.

1921-ci il oktyabrın 13-də RSFSR-in iştirakı ilə Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR və Türkiyə Respublikası arasında imzalanmış Qars müqaviləsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi və onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Beləliklə, 1917-ci ildən mübarizə aparan naxçıvanlıların arzuları gerçəkləşdi, diyarın ərazi mənsubiyyəti məsələsi beynəlxalq müqavilələrlə Azərbaycan üçün qanuni və ədalətli qaydada həll olundu.

Naxçıvanın muxtariyyət statusunun hüquqi bazasının yaradılması 1924-cü ilin aprelində təsdiq edilmiş Əsasnamə və 1926-cı il aprelin 18-də qəbul olunmuş Naxçıvan MSSR-in birinci Konstitusiyası və sonrakı konstitusiyalarla təsbit edildi. 1924-cü il fevralın 9-da isə Azərbaycan SSR MİK-in dekretinə əsasən Naxçıvan Azərbaycan SSR-in tərkibində Naxçıvan MSSR-ə çevrildi. Bununla da qədim diyarın statusu qəti şəkildə müəyyənləşdirildi. Tarixi proseslərin inkişafının nəticəsi olaraq Naxçıvan 1921-ci il martın 16-dan Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan sonra Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

Ötən əsrin 80-ci illərinin sonlarına yaxın ermənilərin qəsbkarlıq planlarında "Dağlıq Qarabağ"la bərabər Naxçıvan da mühüm yer tutmuşdu. Qədim diyarı blokadaya salan, hava nəqliyyatından başqa digər kommunikasiya xətlərini kəsən, onun Azərbaycanla bütün əlaqələrinə mane olan Ermənistan Naxçıvana qarşı həm də hərbi basqınlara rəvac vermiş, sərhəd kəndlərinə silahlı hücumlar etmişdir.

1990-cı il iyul ayının 22-də görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana gəlməsi, burada yaşayıb siyasi fəaliyyət göstərməsi muxtar respublika ərazisini işğaldan, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etdi. Həmin dövrdə Naxçıvan Muxtar Respublikasının sərhəd kəndlərinə erməni təcavüzü olarkən, diyarın ərazi bütövlüyü pozularkən 1991-ci il yanvar ayının 11-də Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Moskva və Qars müqaviləsini imzalayan dövlətlərə bəyanat verərək bu hadisəyə münasibət bildirməyə çağırdı. Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələrini yenidən gündəmə gətirərək dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavüzkar siyasətinə yönəltməsi Naxçıvanın muxtariyyət statusuna ikinci ömür verdi. Ulu öndər Heydər Əliyevin apardığı diplomatik mübarizənin ən böyük uğuru dünyanın 57 ölkəsinin Ermənistanın Naxçıvana təcavüzünü rəsmi şəkildə pisləməsi ilə nəticələndi.

Ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvanla bağlı verdiyi sərəncamlar, bu diyara tarixi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həlli vacib olan digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını təmin edib, onu çiçəklənən diyara çevirib.

Doxsanıncı illərin ikinci yarısı Naxçıvanın muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi baxımından diqqəti cəlb edir. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) ilə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının VIII fəsli "Naxçıvan Muxtar Respublikası" adlanır. Konstitusiyanın 134-cü maddəsinin ilk bəndində deyilir: "Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir".

Azərbaycan Respublikasının Konstitusiyası əsasında Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyası hazırlandı. Yeni Konstitusiya Ali Məclisin 1998-ci il aprelin 28-də keçirilən sessiyasında qəbul olundu və həmin il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi.

Konstitusiyanın birinci maddəsində göstərilir: "Naxçıvan muxtar dövləti Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır. Naxçıvan Muxtar Respublikasının statusu Azərbaycan Respublikasının Konstitusiyası, 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars beynəlxalq müqavilələri müəyyən edir".

Ümummilli lider Heydər Əliyev Naxçıvanın muxtariyyət qazanmasını dövlətçilik tariximizdə mühüm nailiyyət kimi qiymətləndirərək demişdir: "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq".

Xalqımızın xoşbəxtliyi ondadır ki, biz yalnız keçmişimizlə deyil, bu günümüzlə, gələcəyimizlə də fəxr edirik. Çünki ulu öndərin bizə əmanət etdiyi müstəqil Azərbaycan dövləti və onun böyük uzaqgörənliklə işləyib hazırladığı siyasi xətti Prezident cənab İlham Əliyev uğurla davam etdirir. Qədirbilən xalqımız müdrik rəhbərimizin əziz xatirəsini daim böyük hörmətlə yad etdiyi kimi, Prezident cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasəti də dəstəkləyir, onun ətrafında daha sıx birləşərək bu siyasətin reallaşmasına öz töhfəsini verir.

Muxtar respublikaya səfərləri çərçivəsində keçirdiyi görüşlərin birində dövlət başçısı naxçıvanlılara xitabən demişdir: "Xalqımızın ümummilli lideri Heydər Əliyev Naxçıvana çox diqqətlə yanaşırdı. Ona görə yox ki, burada anadan olmuşdu, bura onun vətəni idi. Ona görə ki, siyasi xadim kimi Naxçıvanın Azərbaycan üçün əhəmiyyətini çox gözəl başa düşürdü".

Bu gün Naxçıvan muxtariyyət tarixinin ən şanlı və əlamətdar dövrünü yaşayır. Naxçıvanın yüksək sosial, iqtisadi və mədəni inkişafı 101 illik muxtariyyət tarixinin zirvəsi kimi dəyərləndirilir. Prezident cənab İlham Əliyev tərəfindən 2023-cü il 30 dekabr tarixdə imzalanmış "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamda deyilir: "Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri - Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir".

Bu Sərəncam blokada şəraitində yaşayan Naxçıvana böyük diqqət və qayğının daha bir ifadəsi, ölkə başçısının ulu öndərin "Çox məmnunam ki, Azərbaycanın müstəqilliyi yolunda yenə də Naxçıvan dayaqdır" qənaətinə böyük ehtiram kimi dəyərləndirilir.

Qədim Azərbaycan torpağı Nuhun vətəni, bəşəriyyətin beşiyi, 5-7 minillik şəhərsalma tarixi, elm və təhsil məkanı Naxçıvan bundan sonra daha da çiçəklənəcək, dövlətimizin inkişafı, cəmiyyətimizin tərəqqisi və milli vəzifələrimizin həyata keçirilməsi yolunda öz töhfələrini verəcək.